Qədim Diyar Oktyabr 2026, Cild: 8, Sayı: 10, s. 189−195
Ancient Land October 2026, Volume: 8, Issue: 10, pp. 189−195
DOI: https://doi.org/10.36719/2706-6185/64/189-195

Con İrvinqin "Qarpa görə dünya" romanında gender siyasəti və fərdi azadlıq

Günəş Məmmədova

Xülasə. *Məqalədə Con İrvinqin "Qarpa görə dünya" (The World According to Garp, 1978) romanında gender münasibətlərinin necə qurulduğu, harada pozulduğu və harada gizli şəkildə bərpa olunduğu təhlil edilir. Təhlil Raewyn Connell-in gender münasibətləri modelinə, Anna G. Jónasdóttirin "sevgi gücü" konsepsiyasına, Kim McKay-in narratoloji yanaşmasına və Evan Cartonun "mənliyin siyasəti" anlayışına əsaslanır. Romanın feminizmə münasibəti Janice Doane və Devon Hodges ilə Kim Loudermilkin tənqidi fonunda qiymətləndirilir. Nəticədə göstərilir ki, romanda nə feminist ideyalar təbliğ olunur, nə də feminizmə qarşı polemika müşahidə olunur; əsər hər iki düşüncənin ən radikal versiyasını əks etdirən ziddiyyətlər toplusudur.*
Bu tədqiqat Con İrvinqin "Qarpa görə dünya" romanını yaxın oxu (close reading) və multidissiplinar nəzəri çərçivədə təhlil edir. Metodoloji olaraq Connell-in maskulinlik iyerarxiyası, əmək, hakimiyyət və kateksis ölçüləri, həmçinin Jónasdóttir-in emosional əmək və "sevgi gücü" konsepsiyaları əsas götürülür. Tədqiqatda cins, gender və gender kimliyi terminləri dəqiqləşdirilərək, Qarp obrazının ziddiyyətli sosial mövqeyi və romanın gender strukturundakı yeri sistemli şəkildə qiymətləndirilir.

Açar sözlər: *Con İrvinq, "Qarpa görə dünya", gender siyasəti, hegemon maskulinlik, sevgi gücü, metafiksiya, feminizm*

Azərbaycan Milli Elmlər Akademiyası, Dissertant, Bakı, Azərbaycan
E-poçt: gunes.ehmedova.89@mail.ru
Daxil oldu: 28 Aprel 2026; Qəbul edildi: 11 Avqust 2026; Onlayn dərc edildi: 28 Oktyabr 2026
© Müəllif(lər) 2026. Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

Gender Politics and Individual Freedom in John Irving's "The World According to Garp"

Gunesh Mammadova

Abstract. *This article examines how gender relations are constructed, where they break down, and where they are covertly restored in John Irving's The World According to Garp (1978). The analysis draws on Raewyn Connell's model of gender relations, Anna G. Jónasdóttir's concept of "love power", Kim McKay's narratological approach, and Evan Carton's notion of the "politics of the self". The novel's relationship to feminism is assessed against the critical background of Janice Doane and Devon Hodges, and of Kim Loudermilk. The article concludes that the novel neither promotes feminist ideas nor polemicizes against feminism; rather, it is a collection of contradictions that reflects the most radical version of each line of thought. This study analyzes John Irving's novel The World According to Garp through close reading and a multidisciplinary theoretical framework. Methodologically, it draws upon Connell's hierarchy of masculinities–alongside the dimensions of labor, power, and cathexis–and Jónasdóttir's concepts of emotional labor and "love power".*

By clarifying the terms sex, gender, and gender identity, the research systematically evaluates the contradictory social position of the protagonist and the novel's gender dynamics.

Keywords: *John Irving, "The world According to Garp", gender politics, hegemonic masculinity, love power, metafiction, feminism*

Azerbaijan National Academy of Sciences, PhD student, Baku, Azerbaijan
E-mail : gunes.ehmedova.89@mail.ru
Received: 28 April 2026; Accepted: 11 Agustos 2026; Published online: 28 October 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Con İrvinqin 1978-ci ildə nəşr olunmuş "Qarpa görə dünya" romanı XX əsr Amerika nəsrində gender münasibətlərini, fərd–cəmiyyət ziddiyyətini və institusional dəyərlərin sorğulanmasını ən mürəkkəb şəkildə işləyən əsərlərdən biridir (Miller, 1982; Reilly, 1991; Campbell, 1998). Süjet iki nəslin həyat xətti üzərində qurulur: müstəqil ruhlu tək ana Cenni Filds (Jenny Fields) və onun oğlu, yazıçı T. S. Qarp (T. S. Garp). Cenni ənənəvi nikah modelindən kənarda ana olmağı seçir, "A Sexual Suspect" adlı avtobioqrafiyası ilə gözlənilmədən feminist hərəkatın simvoluna çevrilir və sonda siyasi motivli sui-qəsdin qurbanı olur. Qarp isə atasızlıq, anasının güclü şəxsiyyəti, yazıçılıq ambisiyası və daimi fəlakət qorxusunun kəsişməsində formalaşır; o da eyni gender qarşıdurmasının digər cəbhəsindən gələn zorakılığa qurban gedir (Irving, 1978).

Bu simmetriya romanı yalnız "feminist" və ya "anti-feminist" mətn kimi təsnif etməyin məhsuldar olmadığını göstərir. Daha dəqiq sual belədir: roman gender rollarını hansı mexanizmlərlə qurur, hansı nöqtələrdə pozur və hansı nöqtələrdə pozulmuş kimi görünən rolları gizli şəkildə bərpa edir?

Tədqiqatın məqsədi Cenni Filds, Qarp, Roberta Muldoun, Helen Holm və Ellen Ceymsçilər obrazları üzərindən romanın gender münasibətlərini necə qurduğunu, pozduğunu və bərpa etdiyini müəyyənləşdirməkdir. Feminizmin populyar ədəbiyyatda təqdimatı məsələsində Doane və Hodges (1987) ilə Loudermilkin (2004) tənqidi nəzərə alınır; periferik cinsəlliklər barədə isə Díaz Marínin (2020) dissertasiyasına istinad olunur.

Metodlar

1.1. Tədqiqatın materialı və terminologiya
Tədqiqatın materialı Con İrvinqin "Qarpa görə dünya" (1978) romanıdır. Əsərin süjet və ideyasını dərindən anlamaq üçün terminoloji dəqiqləşdirmə zəruridir. Bu məqalədə "cins" bioloji-anatomik fərqi, "gender" həmin fərq üzərində qurulan sosial münasibətlər sistemini, "gender kimliyi" isə fərdin özünü hansı gendərə aid etməsini bildirir. Mətnin böyük hissəsi gender rollarının və münasibətlərinin təhlilinə həsr olunub; "gender kimliyi" anlayışı isə dəqiq mənada yalnız Roberta Muldoun obrazına münasibətdə işlədilir.

1.2. Metodoloji yanaşma və nəzəri çərçivə
Metodoloji yanaşma iki səviyyəni birləşdirir: konkret epizodlar üzrə yaxın oxu (close reading) və bu oxunun nəzəri çərçivələrlə əlaqələndirilməsi. Narratoloji quruluş üçün McKay (1992), kimliyin ictimai qurulması üçün Carton (1986), maskulinlik üçün Connell (1987; 1995), emosional əməyin bölgüsü üçün Jónasdóttir (1994) əsas götürülür.

Connell (1987) genderi fərdi xarakter xüsusiyyəti kimi deyil, üç ölçüdə qurulan sosial münasibətlər strukturu kimi təhlil edir: əmək bölgüsü, hakimiyyət münasibətləri və kateksis, yəni emosional bağlılığın və arzunun təşkili. Bu üç ölçünü Qarp ailəsinə ayrı-ayrılıqda tətbiq etdikdə obrazın ziddiyyəti dəqiq ölçülə bilən hala gəlir.

Connell (1995) hegemon maskulinlik anlayışını bütün kişilərin davranışını ifadə edən model kimi deyil, patriarxal münasibətləri möhkəmləndirən və cəmiyyətdə qəbul olunan ideal kişi obrazı kimi izah edir. Kişilərin əksəriyyəti bu ideala tam uyğun gəlmir, lakin onun yaratdığı üstünlüklərdən faydalanır; Connell bu mövqeyi "iştirakçı maskulinlik" (complicit masculinity) adlandırır. Connell və Messerschmidt (2005) isə xüsusi vurğulayırlar ki, bu anlayış konkret kişini səciyyələndirmək üçün deyil, cəmiyyətdəki gender münasibətlərini təhlil etmək üçün işlədilməlidir.

Jónasdóttir (1994) formal hüquqi bərabərliyin bərqərar olduğu cəmiyyətlərdə də gender bərabərsizliyinin davam etməsini "sevgi gücü"nün (love power) qeyri-bərabər mübadiləsi ilə izah edir. Bu modeldə qayğı, emosional diqqət və təsdiq sosial resurslardır; kişilər bu resursu qadınlardan aldıqları həcmdə geri qaytarmır, əksinə onu özünəinama və ictimai səlahiyyətə çevirirlər.

Nəticələr

2.1. Cenni Filds: fərdi azadlıq və onun etik qiyməti

Cenni Fildsin fərdiliyi nəzəri bəyannamə şəklində deyil, gündəlik qərarlarda üzə çıxır. O, varlı ailəsinin təklif etdiyi həyat modelini rədd edir, tibb bacısı peşəsini seçir, işləmək və tək yaşamaq istəyir. Məhz bu istək onu öz avtobioqrafiyasında "cinsi baxımdan şübhəli" (sexual suspect) şəxsə çevirir (Irving, 1978). Bu mövqe passivlik demək deyil: kinoteatrda ona yaxınlaşmağa çalışan naməlum kişinin qolunu tibbi neştərlə kəsməsi göstərir ki, Cenni bədən toxunulmazlığını mücərrəd hüquq kimi deyil, fəal şəkildə müdafiə olunası sərhəd kimi qəbul edir. Epizod romanın mühüm qanunauyğunluğunu da açır: bu mətndə gender qarşıdurması demək olar ki, həmişə bədən üzərində və zorakılıq dili ilə həll olunur.

Cenninin hamiləlik seçimi romanın ən mübahisəli epizodudur. Övlad sahibi olmaq istəyi yarananda o bunu cəmiyyətin gözlədiyi çərçivədə deyil, tamamilə fərdi qərarla həyata keçirir və beyin travması almış, vəziyyəti pisləşən texniki serjant Qarpı seçir (Irving, 1978). Lakin romanda bu epizod ideallaşdırılmır, tənqidi oxu da onu ideallaşdırmamalıdır: Cenninin suverenliyi burada başqa insanın iradəsizliyi hesabına reallaşır. Başqa sözlə, azadlıq tələbi ilə başqasının subyektliyinin ləğvi eyni epizodda birləşir. Romanın gender siyasətini məhz belə paradokslar müəyyən edir: mətn heç bir obraza mənəvi toxunulmazlıq vermir. Carton (1986) Cennini "şübhəli" edən əsas amilin ideoloji doqmatizm deyil, patriarxal reallıqdan özünüqoruma instinkti olduğunu göstərir. Díaz Marín (2020) isə İrvinqin əsərlərində ənənəvi cinsi normalara uyğun gəlməyən obrazların "şübhəli" hesab edilmələri vasitəsilə diqqətə çatdırıldığını qeyd edir.

Cenninin avtobioqrafiyası onun niyyətindən asılı olmayaraq hərəkatın manifestinə çevrilir; Cenni şəxsi təcrübəsi ilə deyil, adı ilə iş görən fiqura dönür (Irving, 1978).

2.2. Qarp: maskulinliyin dəyişən və dəyişməyən ölçüləri

Əmək ölçüsündə dəyişiklik real və radikaldır: Qarp yemək bişirir, uşaqlara baxır, ev təsərrüfatını aparır; Helen isə universitetdə çalışır və ailənin sabit gəlirini təmin edir (Irving, 1978). Hakimiyyət ölçüsündə mənzərə dəyişir. Ailənin emosional iqlimini Qarpın narahatlığı müəyyən edir: təhlükəsizlik qaydaları, küçədə sürətə nəzarət, uşaqların hərəkət azadlığının məhdudlaşdırılması qoruyuculuq adı altında həyata keçirilən nəzarətdir. Qarp ev işini öz üzərinə götürməklə ev üzərindəki səlahiyyətdən imtina etmir, əksinə onu möhkəmləndirir. Kateksis ölçüsündə isə dəyişiklik demək olar ki, yoxdur: Qarp uşaq baxıcıları ilə münasibətlərini özü üçün ciddi əxlaqi problem saymır, lakin

Helenin Maykl Milton ilə münasibətini xəyanət, sahiblik hüququnun pozulması kimi yaşayır. Eyni davranışın iki fərqli qiymətləndirilməsi klassik ikili standartdır.

Hegemon maskulinlik anlayışı baxımından Qarpı ənənəvi kişi obrazından uzaqlaşan yeni model kimi təqdim etmək müəyyən mənada doğrudur, lakin ehtiyatlı olmaq lazımdır: onu nə hegemon maskulinliyin tam nümayəndəsi, nə də ondan tam təcrid olunmuş obraz saymaq olar. O, bu modelin bəzi üstünlüklərini qoruyan, bəzi cəhətlərini isə rədd edən iştirakçı mövqedədir. Díaz Marín (2020) bu ziddiyyətli mövqeyi "kvir maskulinlik" (queer masculinity) kimi qiymətləndirir.

Qarpın daxili dünyasını idarə edən metafora – "Undertoad" – bir uşağın eşitmə səhvindən doğur: Volt sahildəki "undertow" (dib cərəyanı) xəbərdarlığını «under toad» (altdakı qurbağa) kimi eşidir və ailə bu səhvi öz daxili sözünə çevirir. Undertoad hər an qəfildən baş verə biləcək fəlakətin adıdır; təhlükə adlandırıla bilər, lakin idarə oluna bilməz (Irving, 1978). Qarpın qoruyuculuq davranışı bütünlüklə bu qorxu ilə şərtlənir, lakin mətnin qurduğu ironiya ondadır ki, fəlakət kənardan gəlmir. Voltun ölümü bir neçə müstəqil qərarın və təsadüfün kəsişməsində baş verir: Qarpın uşaqlarla birlikdə maşının mühərrikini söndürüb evin yoluna sürüşərək girmək vərdişi, Helenin həmin gecə Milton ilə maşında olması, hava və görmə şəraiti. Əsər məsuliyyəti tək bir obraza yükləmir: Heleni "xəyanətkar ana" kimi cəzalandıran oxu da, Qarpı tam günahkar sayan oxu da romanın quruluşuna ziddir. Patriarxal qısqanclıq, qadının cinsi muxtariyyət cəhdi və təsadüf eyni gecədə üst-üstə düşəndə nəticəni heç bir ideologiya izah edə bilmir. Miller (1982) Qarpın yazıçılıq inkişafını təhlil edərkən onun bədii metodunun dönüş nöqtəsini də bu hadisə ilə bağlayır.

2.3. Roberta Muldoun: gender kimliyi və tanınma problemi

Romanın gender kimliyi mövzusunu birbaşa ortaya qoyan yeganə obrazı Roberta Muldoundur (Roberta Muldoon). Peşəkar Amerika futbolu oyunçusu Robert Muldoun keçid prosesindən sonra Roberta kimi yaşamağa başlayır, Cenni Fildsin ən yaxın dostuna və Qarp ailəsinin daimi üzvünə çevrilir (Irving, 1978). Cenni, Helen və Ellen obrazları gender rollarının təhlilini tələb edirsə, Roberta gender kimliyinin özünü mövzuya çevirir.

Robertanın analitik funksiyası üç istiqamətdə üzə çıxır. Birincisi, o, maskulinliklə fiziki qoruyuculuq arasındakı avtomatik əlaqəni pozur: mühafizə funksiyasını və sonradan Fildsin adını daşıyan fondun rəhbərliyini məhz trans qadın yerinə yetirir. Connell (1995) modelində bədən gücü hegemon maskulinliyin əsas resurslarından biridir; roman həmin resursu kişilikdən ayırıb başqa kimliyə ötürməklə onun gender ilə əlaqəsinin təbii deyil, sosial olduğunu göstərir. İkincisi, Roberta tanınma problemini ortaya qoyur: onun kimliyi nə cəmiyyət, nə də hərəkat daxilində maneəsiz qəbul edilir. Üçüncüsü, onun təsvirindəki komik ton tənqidi baxış tələb edir. Keçmiş idmançı bədəni ilə yeni həyatı arasındakı ziddiyyət bəzi epizodlarda yumor mənbəyinə çevrilir və bu isə obrazın ciddi etik yükü ilə həmişə uzlaşmır. Díaz Marín (2020) bu ikiliyi belə qeyd edir: əsər normadan kənar kimlikləri görünən edir, lakin onları çox zaman "istisna" statusunda saxlayır. Robertanı romanın gender siyasətinin ən radikal nöqtəsi saymaq olar, bu şərtlə ki, onun təqdimatındakı məhdudiyyət də nəzərə alınsın.

2.4. Helen Holm: akademik muxtariyyət, sevgi gücü və institusional yaddaş

Helen Holm zəkası, akademik nailiyyətləri və müstəqil iradəsi ilə seçilir: gənc yaşda ingilis ədəbiyyatı üzrə elmi dərəcə alır və universitetdə dərs deməyə başlayır (Irving, 1978; Hüseynov, 2022). Onun kimliyinin mərkəzində yazmaq deyil, oxumaq dayanır. Bu, təsadüfi xarakter daşımır, romanın struktur xüsusiyyətidir: əsərdə kişilər yazır, qadınlar isə oxuyur və oxuduqlarını qiymətləndirir. Doane və Hodgesin (1987) iradı məhz bu bölgüdə ən güclü dayağını tapır.

Jónasdóttirin modeli Qarp ailəsinə tətbiq edildikdə Connell-in kateksis ölçüsü ilə birbaşa əlaqəyə girir. Qarp əmək ölçüsündə ənənəvi bölgünü pozur, lakin onun yazıçılığını mümkün edən əsas resurs

Helenin əlyazmaları oxuması, onların bədii dəyərini qiymətləndirməsi və Qarpın istedadına bəslədiyi davamlı inamdır (Irving, 1978). Helenin peşəkar bacarığı ailə daxilində qarşılığı olmayan əmək kimi dəyərləndirilir; Qarpın ədəbi nüfuzu isə fərdi nailiyyət kimi qeydə alınır. Deməli, ev işinin yenidən bölüşdürülməsi emosional və intellektual əməyin bölgüsünü dəyişmir.

Romanda Helenin təhsilinin akademik səviyyəyə çatması 1781-ci ildə oğlanlar üçün təsis edilmiş Steering məktəbi vasitəsilə bağlanır. Helen güləş məşqçisinin qızı kimi məktəbin əhatəsində böyüyür, lakin onun şagirdi ola bilmir (Irving, 1978). Bu, bərabərsizliyin ən aydın təsviridir: fərd təhsil mərkəzinin daxilindədir, amma onun subyekti deyil. Helenin məzar daşında bu təcrübənin qeyd olunmasını istəməsi cəmiyyətin sosial strukturlarının keçmiş hadisələri yadda saxlaması mövzusunu ön plana çıxarır: ayrı-seçkilik məktəbin, ailənin və sosial strukturların fəaliyyətində özünü göstərə və insanın ölümündən sonra da yazılı şəkildə qeydə alına bilər. Reilly (1991) İrvinq nəsrində məktəb, xəstəxana və fond kimi qurumların obrazların taleyini müəyyən edən müstəqil qüvvə kimi çıxış etdiyini göstərir; Steering də bunun ən bariz nümunəsidir.

2.5. Metafiksiya, başqasının travması və Ellen Ceymsçilər

McKay (1992) romanın narratoloji quruluşunu təhlil edərək göstərir ki, təhkiyəçi iki fərqli diskursdan istifadə edir: bioqrafın sənədləşdirici dili və yazıçının hadisələri formalaşdıran bədii dili. Qarp eyni zamanda həm sənədləşdirilən "tarixi şəxs", həm də qurulan bədii obrazdır. Carton (1986) tərəfindən irəli sürülən "mənliyin siyasəti" anlayışı McKay-in təhlilini tamamlayır: Romanda kimlik sabit deyil, cəmiyyətin təsiri ilə formalaşan və dəyişən bir anlayışdır. Roman daxilində kimin danışması və hadisələri kimin nəql etməsi hakimiyyət münasibətlərini müəyyənləşdirir. Qarpın mətndaxili əsərləri ("The Pension Grillparzer, "Vigilance", "The World According to Bensenhaver", yarımçıq "My Father's Illusions") onun təcrübəni necə bədii materiala çevirdiyini göstərən daxili güzgülərdir (Irving, 1978; McKay, 1992). Açar mətn "Bensenhavera görə dünya" romanıdır: Qarp bu romanı Voltun ölümündən sonra yazır və onu təcavüz səhnəsi ilə açır, yəni öz itkisinin dözülməzliyini ifadə etmək üçün qadının bədən zorakılığı təcrübəsini forma kimi istifadə edir. Buradan romanın bütün gender siyasətini birləşdirən əsas ziddiyyət doğur: başqasının travmasının mənimsənilməsi. Qarp qadın zorakılığını öz kədərinin bədii vasitəsinə çevirir; Ellen Ceymsçilər Ellenin travmasını öz siyasi kimliklərinin əsasına qoyurlar; Cenninin avtobioqrafiyası isə onun şəxsi təcrübəsindən qopub hərəkatın mülkiyyətinə çevrilir. Üç fərqli sferada, yəni ədəbiyyatda, siyasətdə və ictimai rəydə eyni mexanizm işləyir.

Ellen Ceymsin on bir yaşında təcavüzə məruz qalması və susdurulması üçün dilinin kəsilməsi romanda patriarxal zorakılığın ən yığcam ifadəsidir: zorakılıq həm bədən üzərində icra olunur, həm də qurbanın şahidlik imkanını ləğv etməyi hədəfləyir (Irving, 1978). Lakin mətn bu məntiqin tamamlanmasına imkan vermir. Ellen danışa bilməsə də, yazır; "Why I Am Not an Ellen Jamesian" ("Niyə mən Ellen Ceymsçi deyiləm") essesi onun öz adından danışmaq hüququnu geri qaytarmasının sübutudur. Ellen Ceymsçilər isə həmrəylik üçün öz dillərini cərrahi yolla kəsdirirlər. İrvinq bu qrup vasitəsilə iki şeyi eyni vaxtda edir: patriarxal zorakılığı ifşa edir və zorakılığın başqa formada təkrarlanması problemini ortaya qoyur. Qurbanın iradəsi nəzərə alınmadan onun adı və travması başqalarının ideoloji fəaliyyətinin mənbəyinə çevrilir.

Müzakirə

Tapıntılar romanın feminizmə münasibəti ilə bağlı mövcud tənqidi mövqelər və "gender dekonstruksiyası" anlayışı baxımından müzakirə olunur.

3.1. Romanın feminizmə münasibəti: tənqidi mövqelərlə müqayisə

Cenninin avtobioqrafiyasının hərəkatın manifestinə çevrilməsi prosesini Loudermilk (2004) "fiktiv feminizm" (fictional feminism) anlayışı ilə izah edir: populyar bestsellerlər feminizmi görünən

etməklə yanaşı, onu şəxsi xarakter xüsusiyyətinə çevirərək siyasi tələbindən məhrum edir. Doane və Hodges (1987) daha kəskin mövqe tuturlar: onların fikrincə, müasir Amerika nəsrində feminizmə qarşı mədəni müqavimət nostalgiya formasında təzahür edir, İrvinqin romanı da buna daxildir, çünki sonda ana fiqurunu məhv edib təhkiyə hüququnu kişi yazıçıya qaytarır. Bu irad tamamilə təkzib edilə bilməz: Cenni öldürülür, roman isə oğlunun bioqrafiyası kimi tamamlanır. Lakin bu iradın təsirini məhdudlaşdıran əsas amil əsərin öz məqsədini reallaşdırma prosesini tənqid etməsidir (Hacızadə, 2023).

Doane və Hodges (1987), eləcə də Loudermilk (2004) romanda radikal feminizmin karikaturaya yaxın şəkildə təqdim olunduğunu irəli sürürlər. Bu tənqidin müəyyən əsası var: Ellen Ceymsçilər, həqiqətən, satirik şişirtmə ilə təsvir olunur. Lakin bu fikri mütləq həqiqət kimi qəbul etmək düzgün olmazdı. Birincisi, qrupa qarşı çıxan səs əsərin xaricindən deyil, daxilindən gəlir: Ellenin özü qrupdan ayrılır və mövqeyini essedə əsaslandırır. Bu, qurbanın adından danışan ideologiyaya qarşı qurbanın öz etirazıdır. İkincisi, roman ideoloji sərtliyi yalnız bir tərəfə aid etmir: Qarp da öz əxlaqi qətiyyətində, nəzarətçi qoruyuculuğunda və başqasının travmasını bədii materiala çevirməsində eyni radikallığı göstərir. Ən ziddiyyətli arqument isə romanın sonluğudur. Cenni anti-feminist mövqedən çıxış edən bir kişi tərəfindən, Qarp isə Ellen Ceymsçilərə bağlı olan Pooh Percy tərəfindən öldürülür (Irving, 1978). Bu hadisələr göstərir ki, gender mübarizəsində tərəflərdən heç biri qalib gəlmir; əksinə hər iki tərəfin radikal mövqeyi faciə ilə nəticələnir. Campbell (1998) də İrvinqin əsərlərində zorakılığın belə qapalı dövr şəklində təqdim olunduğunu qeyd edir.

3.2. "Gender dekonstruksiyası" anlayışının hüdudları

Bu mənzərə romanın genderi sabit kateqoriya kimi təqdim etmədiyini göstərir. Lakin "gender dekonstruksiyası" ifadəsi ehtiyatla işlədilməlidir: mətn gender fərqlərini ləğv etmir və heç bir obraza tam azadlıq vermir. Daha dəqiq desək, İrvinq gender rollarının ailə, peşə, institut, zorakılıq və mədəni ideologiya ilə qarşılıqlı təsirdə davamlı şəkildə yenidən qurulduğunu və bu prosesin heç vaxt başa çatmadığını göstərir. Connell-in modeli maskulinliyin hansı ölçüdə dəyişdiyini və hansı ölçüdə dəyişməz qaldığını ayırd etməyə, Jónasdóttirin konsepsiyası bərabər görünən ailədaxili bölgünün gizli asimmetriyasını görməyə, McKay və Cartonun yanaşmaları kimliyin mətn vasitəsilə qurulduğunu izləməyə, Doane–Hodges və Loudermilkin tənqidi isə romanın feminizmə münasibətini sorğulamağa imkan verir.

3.3. Tədqiqatın məhdudiyyətləri

Tədqiqatın bir sıra məhdudiyyətləri var. Birincisi, təhlil yalnız "Qarpa görə dünya" romanının yaxın oxusuna əsaslanır və nəticələr İrvinqin digər əsərlərinə avtomatik şəkildə şamil edilməməlidir. İkincisi, istifadə olunan nəzəri çərçivələr (Connell, Jónasdóttir) Qərb sosial elmləri kontekstində formalaşıb və 1970-ci illər Amerika cəmiyyətinə aid mətnə tətbiq olunub; bu çərçivələrin başqa mədəni və tarixi kontekstlərdə tətbiqi əlavə əsaslandırma tələb edir. Üçüncüsü, gender kimliyi məsələsi yalnız Roberta Muldoun obrazı üzərindən təhlil olunub və bu, mövzunun bütün aspektlərini əhatə etmir. Nəhayət, romanın feminizmə münasibəti, əsasən ,tənqidi ədəbiyyat müstəvisində qiymətləndirilib, oxucuların rəyi ayrıca araşdırılmayıb.

Nəticə

Romanın gender siyasətinin əsas xüsusiyyəti obrazların bir-birini həm tamamlayan, həm də təkzib edən mövqelər yaratmasıdır. Cenni nikahdan kənar ana ola bilir, lakin bu azadlıq başqasının iradəsizliyi hesabına qurulur və sonradan onun əlindən alınıb simvola çevrilir. Qarp ev və uşaq qayğısında ənənəvi rolu pozur, lakin qısqanclıq və nəzarət reaksiyalarında hegemon modelin iştirakçısı olaraq qalır. Helen peşəkar muxtariyyətini qoruyur, lakin ailə daxilində onun emosional və intellektual əməyi qeydə alınmır. Roberta gender kimliyini seçimin nəticəsi kimi göstərir, lakin tam tanınmaya nail ola bilmir. Ellen isə öz travmasının mənimsənilməsinə yazıları ilə müqavimət göstərir.

Bu nəzəri və tənqidi istiqamətlərin kəsişməsində "Qarpa görə dünya" nə feminist manifest, nə də feminizmə qarşı polemikadır.

Tədqiqatın nəticələri bir neçə istiqamətdə davam etdirilə bilər. Birincisi, Connell və Jónasdóttirin modellərinin İrvinqin digər romanlarına tətbiqi onun gender siyasətində ardıcıl qanunauyğunluqların olub-olmadığını göstərə bilər. İkincisi, "Qarpa görə dünya" nın gender təsvirlərinin Günter Qrassın nəsri ilə müqayisəsi məsələni müqayisəli ədəbiyyatşünaslıq müstəvisinə çıxara bilər. Üçüncüsü, romanın oxucular tərəfindən qəbulunun zamanla necə dəyişdiyinin araşdırılması onun feminizmə münasibəti barədə mübahisələrə yeni material verə bilər.

Ədəbiyyat

Campbell, J. P. (1998). *John Irving: A critical companion*. Greenwood Press. https://www.bloomsbury.com/us/john-irving-9780313302220/?utm_source=chatgpt.com

Carton, E. (1986). The politics of selfhood: Bob Slocum, T. S. Garp and auto-American-biography. *Novel: A Forum on Fiction*, *20*(1), 41–61. https://doi.org/10.2307/1345423

Connell, R. W. (1987). *Gender and power: Society, the person and sexual politics*. Stanford University Press.

Connell, R. W. (1995). *Masculinities*. University of California Press.

Connell, R. W., & Messerschmidt, J. W. (2005). Hegemonic masculinity: Rethinking the concept. *Gender & Society*, *19*(6), 829–859. https://doi.org/10.1177/0891243205278639

Díaz Marín, C. M. (2020). *Sexual suspects: Un estudio de las sexualidades periféricas en la obra de John Irving* [Doctoral dissertation, Universidad de Granada]. DIGIBUG. https://hdl.handle.net/10481/63558

Doane, J., & Hodges, D. (1987). *Nostalgia and sexual difference: The resistance to contemporary feminism*. Methuen.

Hacızadə, G. (2023). Feminism in the novel of Jane Eyre. *Qədim diyar*, *5*(4), 140–144. https://doi.org/10.36719/2706-6185/22/140-144

Hüseynov, M. (2022). Sosiolinqvistika və dil variantlılığı anlayışı. *Elmi iş*, *16*(3), 6–10. https://doi.org/10.36719/2663-4619/2022/3/1/6-10

Irving, J. (1978). *The world according to Garp*. E. P. Dutton.

Jónasdóttir, A. G. (1994). *Why women are oppressed*. Temple University Press.

Loudermilk, K. A. (2004). *Fictional feminism: How American bestsellers affect the movement for women's equality*. Routledge. https://doi.org/10.4324/9780203507025

McKay, K. (1992). Double discourses in John Irving's *The World According to Garp*. *Twentieth Century Literature*, *38*(4), 457–475. https://doi.org/10.2307/441778

Miller, G. (1982). *John Irving*. Frederick Ungar Publishing Co.

Reilly, E. C. (1991). *Understanding John Irving*. University of South Carolina Press.